**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 284/1** **27 dekabr 2016-cı il**

**Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunmasına nəzarət və bu barədə illik hesabatın hazırlanması barədə**

2013-cü il 5 dekabr tarixində Palata Şurası tərəfindən təsdiq edilmiş "Auditorlar Palatası üzvləri tərəfindən etik davranış qaydalarının pozulması barədə illik hesabatın hazırlanmasına dair TƏLİMAT"ın tələblərinə və Palatanın 2016-cı il üzrə iş planının 3.8-ci və Palata Şurasının 2016-cı il üzrə iş planının 19-cu "Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunmasına nəzarət və bu barədə illik hesabatın hazırlanması" bəndlərinin icrası ilə əlaqədar Auditin hüquqi təminatı və standartlaşdırma idarəsi və Auditorlar Palatasının Şurası yanında Auditorların peşə etikası Komitəsi tərəfindən hazırlanmış illik hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunmasına nəzarət və bu barədə illik Hesabat" nəzərə alınsın (əlavə olunur).
2. Palatanın aidiyyatı struktur bölmələrinə (M.Abbasov, Y.Namazəliyev) və Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin (E.Əliyev) və Auditorlar Palatasının Şurası yanında Peşə Etikası Komitəsinin (Yunis Salayev) rəhbərlərinə tapşırılsın ki, sərbəst auditorlar və auditor təşkilatları tərəfindən aparılmış auditlərin keyfiyyətinin audit standartlarına uyğunluğu yoxlanılarkən və onların barəsində Palataya daxil olmuş məlumatlar, müraciətlər üzrə araşdırma aparılarkən etik davranış qaydalarına riayət olunması vəziyyətini daim diqqətdə saxlasınlar.
3. Auditor təşkilatlarının rəhbərlərindən və sərbəst auditorlardan tələb olunsun ki, öz fəaliyyətlərində Peşə etikasının tələblərinə ciddi riayət etsinlər.
4. Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bu qərarın, "Auditorlar Palatasının üzvləri tərəfindən etik davranış qaydalarına riayət olunmasına nəzarət və bu barədə illik Hesabat"ın Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**